# Yaddaşlarda qalan sənət əsərləri

**Azərbaycan təsviri sənət tarixində Xalq rəssamı Rafiq Mehdiyevin böyük xidmətləri var. O, göstərmiş olduğu davamlı bədii və pedaqoji yaradıcılıq fəaliyyəti ilə sənət adamlarının yaddaşında əbədi qalıb. Bu il incəsənət xadimi, professor Rafiq Mahmud oğlu Mehdiyevin 90 illik yubileyi tamam olur.**



R.Mehdiyev Naxçıvan MR-in Şahbuz rayonunda anadan olmuşdur. İxtisas təhsilini əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1948-1953), daha sonra V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda (1953-1958) almışdır. Tanınmış rəssamlar E.A.Kibrik, N.A.Ponomaryov, B.A.Dexteryovdan sənətin incəliklərini öyrənmişdir. 1955-ci ildən yerli və beynəlxalq əhəmiyyətli sərgilərdə iştirak edən R.Mehdiyev Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olmuş, tələbələrə rəssamlıq sənətinin sirlərini öyrətmişdir. O, dekan vəzifəsində çalışmış, professor elmi dərəcəsinə qədər yüksəlmişdir. R.Mehdiyev uzun müddət





Azərbaycan Rəssamlar İttifaqının Qrafika bölməsinə sədrlik etmişdir. Rəssamın əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və şəxsi kolleksiyalarda saxlanılır. R.Mehdiyev təsviri sənətin qrafika sahəsində yaddaqalan bədii sənət nümunələri ərsəyə gətirmişdir. Onun dəzgah və kitab qrafikası nümunələri özünün məna məzmun dolğunluğu, bədii təsir gücü və peşəkar işlənilmə xüsusiyyətləri ilə diqqəti cəlb edir. O, dəzgah qrafikasının akvarel, ofort, linoqravüra və monotipya texnikasında hamının marağına səbəb olan sənət nümunələri yaratmışdır.

R.Mehdiyev kitab qrafikası sahəsində N.Paqodinin "Silahlı adam" (1957), M.İbrahimovun "Gələcək gün" (1958), C.Məmmədquluzadənin "Quzu", "Saqqallı uşaq", "Poçt qutusu" (1963), İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə" (1965) və başqa əsərlərə illüstrasiyalar çəkmişdir. Rəssamın N.Poqodinin "Silahlı adam" və M.İbrahimovun "Gələcək gün" əsərlərinə yaratmış olduğu linoqravürlər 1959-cu ildə Moskvada təşkil olunan Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə" povestinə çəkdiyi qravürlər isə 1968-ci ildə Kubada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə nümayiş olunaraq yüksək qiymətləndirilmiş və geniş tamaşaçı auditoriyasının marağına səbəb olmuşdur.

Sənətkarın monotipiya seriyalarından "İsmayıllı motivləri" (1966), "Azərbaycan 20-ci illərin əvvəllərində" (1967), "Bakı - inqilab şəhəridir" (1967), "Bizim kənd" (1970), "Bizim torpaq" (1972), "Bizim kəndin insanları" (1975) və başqalarını qeyd etmək olar. Rəssam həmçinin rəngkarlıq nümunələri də yaratmışdır. Sərgilərdə nümayiş olunaraq müvəffəqiyyət qazanan "Sülh torpağında" və "Həyat" adlı tablolar bu qəbildəndir.

R.Mehdiyev uşaq ədəbiyyatı nümunələrinə həssas rəssam qəlbi ilə yanaşaraq bir sıra kitabların bədii tərtibatını və mövzularının süjet xəttini əyani nümayiş etdirən illüstrasiyalar yaratmışdır. H.X.Andersonun "Düyməcik" (1962), Tofiq Mahmudun "Dibçək" (1962), "Utancaq oğlan" (1964), eləcə də başqa müəlliflərin "Qarışqa", "Sürəyya", "Yelləncək" adlı kitabları uşaqların sevinclə mütaliə etdiyi nəşrlər olmuşdur.

R.Mehdiyevin həyat və yaradıcılığına həsr olunmuş albom kitabda sənətşünas Sevil Bədəlova yazırdı: "R.Mehdiyev kitab qrafikası sahəsində ardıcıl fəaliyyət göstərən rəssamlarımızdandır. O, Cəlil Məmmədquluzadənin "Poçt qutusu", "Saqqallı uşaq", "Danabaş kəndinin əhvalatları" əsərlərinə çəkdiyi illüstrasiyalarda əsərlərin məzmununu qrafika dili ilə böyük həssaslıq və ustalıqla açıb göstərmişdir. Bu illüstrasiyalarda rəssam milli koloriti saxlamağa çalışmış, ədəbi əsərlərin məzmunu, yazı üslubu ilə həmahəng səslənən gözəl sənət nümunələri yaratmışdır".

R.Mehdiyevin rəssamlıq sənətimiz, ayrı-ayrı rəssamların yaradıcılığı ilə bağlı bir sıra məqalələri dərc olunub. Rəssamın ailəsi incəsənətə bağlı olub. Belə ki, onun böyük qardaşı Tofiq Mahmud tanınmış şair olub. R.Mehdiyevin yaradıcılıq yolunu rəssamın övladı Əməkdar rəssam Rəşad Mehdiyev uğurla davam etdirir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə açılışı baş tutan Zəngilan rayonunun Ağalı kəndində Zəfər rəmzi, Sülh rəmzi abidəsinin və Bakıda Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasının foyesində möhtəşəm sənət nümunəsinin müəllifi Rəşad Mehdiyevdir.

Rafiq Mehdiyevin 60 illik yubileyi ilə bağlı Xalq rəssamı Mikayıl Abdullayev "İncəsənət" qəzetində (25.08.1993) dərc olunmuş "Rəssam və müəllim" adlı məqaləsində yazırdı: "Əsərlərində rəssam rəngin gücündən, cizgilərin dinamikasından bacarıqla istifadə etmişdir. Rəssamın əsərləri demək olar ki, respublikamızın xaricdə açılan bütün sərgilərində nümayiş etdirilmiş, Azərbaycan təsviri sənətinə rəğbət qazandırmışdır".

R.Mehdiyevin uzunmüddətli bədii və pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycanın Əməkdar (1988) və Xalq rəssamı (1992) fəxri adlarına layiq görülmüş, Prezident təqaüdçüsü olmuşdur. Görkəmli rəssamın yaratmış olduğu əsərlər Azərbaycan təsviri sənət tarixində həmişə qalacaq.

*Əsəd QULİYEV,*
*sənətşünas*

Azərbaycan. - 2023.- 15 avqust.- S.27.